# Azərbaycan qısa müddətdə dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilib

*Dövlətimizin başçısı İlham Əliyevin "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) publik hüquqi şəxsin yaradılması haqqında" Fərmanı ölkəmizdə kosmik fəaliyyət sahəsində əldə edilmiş uğurların davam etdirilməsi, idarəetmə, tənzimləmə, əlaqələndirmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi məqsədinə xidmət edir*



**Azərbaycanın kosmik fəaliyyət sahəsində əldə etdiyi uğurların nəticəsidir ki, Vaşinqtonda Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhəri 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanmışdır. Bu faktın özü Azərbaycanın yeniliklərə imza atan, ən əsası yeni texnologiyaların inkişafına və tətbiqinə xüsusi önəm verən ölkə kimi tanınmasının aydın mənzərəsini yaradır.**

Digər tərəfdən, Azərbaycanın bütün beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etməsində sabit, təhlükəsiz ölkə kimi qazandığı imic də əhəmiyyətli rol oynayır. Bu qərarın ədalətli qərar olduğunu önə çəkən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, çünki Azərbaycanda son illər ərzində müasir texnologiyalar, kosmik sənaye sahələrində əldə edilmiş uğurlar doğrudan da çox təsirlidir. Gənc müstəqil ölkə üçün qısa müddət ərzində belə nailiyyətlərin əldə edilməsi böyük hadisədir. İndi bizim 3 peykimiz var və Azərbaycanda kosmik sənaye inkişaf edir. Azərbaycan dünyanın kosmik klubunun məhdud sayda olan üzvlərindən biridir."

Ölkə Prezidenti İlham Əliyev 2003-cü ildən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoyaraq bildirmişdir ki, əgər biz inkişaf etmiş ölkələrin tarixinə və bugünkü inkişaf dinamikasına nəzər salsaq görərik ki, əsas hərəkətverici qüvvə təhsildir, elmdir, texnologiyalardır, innovasiyalardır. Ona görə biz də çalışırıq və bundan sonra da çalışmalıyıq ki, Azərbaycanda təhsilin səviyyəsi daha da qalxsın. Təhsilin səviyyəsi dünyanın ən yüksək standartlarına cavab versin. Onda ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcək. Dövlətimizin başçısının "Neft kapitalını insan kapitalına çevirək" tezisinə uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi istiqamətində davamlı addımlar atıldı. Ən əsası qarşıya qoyulan məqsədə nail olmaq üçün regionların malik olduğu potensial imkanlardan səmərəli istifadənin prioritetliyi önə çəkildi və buna uyğun olaraq regional inkişaf proqramları qəbul olundu, uğurla icra edildi. Artıq 3 Dövlət Proqramının icrası başa çatıb, dövlətimizin başçısı İlham Əliyevin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə təsdiqlənən dördüncü "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" icra edilir. Sənədlərdə nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının, keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına geniş imkanlar açıb.

Dayanıqlı inkişafa, hədəflərə qısa zamanda nail olmağa yol açan əsas amillərdən biri məhz yeni texnologiyaların inkişafı və tətbiqidir. Hər zaman qeyd olunduğu kimi, iqtisadiyyatın inkişafı elmin və yeni texnologiyaların inkişafı ilə zəncirvari bağlıdır. İKT son illər sürətlə inkişaf edərək iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilmiş, ölkənin iqtisadi, sosial və mədəni inkişafına, dövlət idarəçiliyinin təkmilləşdirilməsinə və bütövlükdə ictimai həyatın demokratikləşməsinə mühüm töhfələr verir. Ölkə əhalisinin 85 faizdən çoxu internet istifadəçisidir. Bu göstəricilərə görə Azərbaycan MDB və Mərkəzi Asiyada liderdir. Azərbaycanda internet mediasının inkişafı və müasir texnologiyalardan istifadə geniş vüsət alır, ən yeni 4G, 5G xidmətləri təqdim edilir. İKT sahəsində əlverişli biznes, investisiya mühiti mövcuddur və həyata keçirilən liberal iqtisadi islahatlar sayəsində özəl sektorun fəaliyyəti ildən-ilə genişlənməkdədir. Bunun nəticəsidir ki, bir çox maliyyə qurumlarının, xüsusilə Azərbaycanı ən islahatçı ölkə kimi dəyərləndirən Dünya Bankının, həmçinin Dünya İqtisadi Forumunun hesabatlarında Azərbaycan bu sahədə də liderliyini qoruyur. Ölkəmizdə informasiya- kommunikasiya texnologiyalarının inkişafına diqqətin bariz nümunəsi kimi cənab İlham Əliyevin 2013-cü ili ölkəmizdə "İKT İli" elan etməsini xüsusi qeyd etməliyik. "İKT ili"ndə ölkəmizin ilk telekommunikasiya peyki orbitə buraxıldı. Ölkə Prezidenti İlham Əliyev bu hadisəni xalqımızın, dövlətimizin böyük nailiyyəti kimi dəyərləndirərək bildirmişdir ki, bu, doğrudan da tarixi bir gündür, böyük nailiyyətdir, dövlətimizin böyük qələbəsidir. Bu hadisə onu göstərir ki, müstəqil Azərbaycan dövləti sürətlə, hərtərəfli inkişaf edir və biz artıq kosmik klubun üzvüyük. "Azərspace-1" ölkəmizdə kosmik sənayenin inkişaf etdirilməsinə, peyk texnologiyalarının geniş tətbiqinə, telekommunikasiya, internet, televiziya-radio yayımı xidmətlərinə olan tələbatın ödənilməsinə şərait yaradaraq, iqtisadi, sosial, elmi, mədəni, təhlükəsizlik və s. sahələrdə inkişafa təkan verir. 2016-cı ildə "Azərsky" müşahidə peyki və 2018-ci ildə isə "Azərspace- 2" peyki orbitə buraxıldı. "Azərsky" müşahidə peykinin rolunu, önəmini 44 gün davam edən İkinci Qarabağ müharibəsində, eyni zamanda, ondan sonrakı mərhələdə aydın görmək mümkündür. Məhz bu peyklərin vasitəsilə düşmənin hərəkətlərini onlayn formatda izləmək və onların təxribatlarının qarşısını almaq Azərbaycana əlavə üstünlüklər qazandırmışdır. Bir mühüm məqamı da qeyd edək ki, bəzi nüfuzlu dünya dövlətləri Ermənistana dəstəklərindən irəli gələrək işğalçı ölkənin guya Vətən müharibəsində Azərbaycanın beynəlxalq səviyyədə qadağan edilmiş raketlərdən istifadə etdiyi barədə əsassız iddialarını təsdiqləyən və məhz bu qərəzdən yaranan suallar dövlətimizin başçısı İlham Əliyevə ünvanlananda ölkə Prezidenti daim onların diqqətinə bu reallığı çatdırırdı ki, müasir texnologiyaların inkişaf etdiyi hazırkı dövrdə hər bir dövlət bu raketlərin hansı tərəfdən istifadə edildiyini izləmək imkanındadır. Təbii ki, dövlətimizin başçısı bu kimi açıqlamaları ilə Azərbaycanın texnoloji sahədə böyük imkanlara malik olduğunu da dünyaya çatdırdı. Xarici mətbuata çoxsaylı müsahibələrində, həmçinin videoformat şəklində keçirilən beynəlxalq səviyyəli tədbirlərdə "Əlbəttə ki, mən texnoloji inkişafla bağlı görülmüş işlər arasında peykləri qeyd etməliyəm" söyləyən cənab İlham Əliyev bildirmişdir ki, həm telekommunikasiya, həm Yer səthini müşahidə edən peyklərimiz qarşıda duran bütün vəzifələri icra etmək üçün geniş imkanlar yaradır.

Vətən müharibəsində Azərbaycanın apardığı əməliyyatlar dünyada hərbi ekspertlər tərəfindən XXI əsrin müharibəsi adlandırıldı. İkinci Qarabağ müharibəsi texnoloji inkişaf baxımından bir yenilik kimi dəyərləndirilir. "Azərsky" müşahidə peyki vasitəsilə nəinki ölkəmizin, dünyanın istənilən nöqtəsində baş verən bütün hadisələri daim izləyə bilirik. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsində "Azərsky" peykinin xüsusi rolu vardır. Bu peykin fəaliyyəti nəticəsində bu sahədə də xaricdən asılılıq tamamilə aradan qaldırılıb. Bir sözlə, Azərbaycan qısa müddətdə dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilib. Bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir. Azərbaycan İKT sahəsində təkcə region deyil, həm də beynəlxalq aləm üçün əhəmiyyətli olan tədbirlərin fəal iştirakçısı və təşkilatçısıdır. Ölkəmizdə ənənəvi olaraq hər il keçirilən "Bakutel" beynəlxalq sərgi və konfransı Xəzəryanı və Qafqaz regionlarında ən iri telekommunikasiya və informasiya texnologiyaları sərgilərindən birinə çevrilməsi, ildən-ilə onun əhatə dairəsinin və iştirakçılarının tərkibinin genişlənməsi də deyilənlərin təsdiqidir.

Yeni texnologiyalar sahəsində əldə olunan uğurlar onu deməyə əsas verir ki, müstəqil Azərbaycan dövlətinin gələcək tarixi də İKT-nin davamlı inkişafı ilə əlamətdar olacaq və ölkəmiz bu sahədə daha möhtəşəm uğurlara imza atacaq. Dövlətimizin başçısı İlham Əliyevin 27 aprel 2021-ci tarixli "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" publik hüquqi şəxsin yaradılması haqqında", həmçinin "Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Fərmanları da bu məqsədə xidmət edir. Birinci sənəd Azərbaycanda kosmik fəaliyyət sahəsində əldə edilmiş uğurların və inkişafın davam etdirilməsi, dünyada gedən sürətli texnoloji tərəqqidən ölkəmizin daha çox faydalanması, kosmik fəaliyyət sahəsində idarəetmə, tənzimləmə, əlaqələndirmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, ikinci sənəd isə ölkədə müasir telekommunikasiya və rəqəmsal arxitektura quruculuğunun idarə olunması, eləcə də müxtəlif sahələrdə rəqəmsal xidmətlər və həllər üzrə platformanın inkişaf etdirilməsi sahəsində işlərin effektiv əlaqələndirilməsi məqsədlərinə xidmət edir. Qeyd edilir ki, müasir dövrdə telekommunikasiya texnologiyaları cəmiyyətin bütün sahələrinə ciddi nüfuz edərək, inkişaf üçün geniş imkanlar yaratmışdır. Qabaqcıl təcrübələrdə keyfiyyətli, təhlükəsiz və səmərəli rəqəmsal transformasiya, eləcə də bu sahədə resurslardan effektiv istifadə innovasiyaların inkişafında hərəkətverici qüvvə hesab olunur. Ölkələr rəqəmsal xidmətlərin genişləndirilməsi və elektron hökumətin inkişafı vasitəsilə səmərəliliyin və şəffaflığın artırılmasına nail olmuşlar. Azərbaycanın regionda rəqəmsal mərkəzə çevrilməsi istiqamətində ardıcıl islahatlar aparılır. Hazırda genişzolaqlı internet şəbəkəsi ölkənin bütün ərazisində tətbiq olunur.

Artıq Azərbaycan postmüharibə dövrünü yaşayır. İstər 44 günlük İkinci Qarabağ müharibəsi, istərsə də koronavirus infeksiyası ilə mübarizə Azərbaycanın malik olduğu imkanların təqdimatında mühüm rol oynadı. Ölkə Prezidentinin qeyd etdiyi kimi, yeni texnologiyaların tətbiqi bundan sonra da hərbi gücümüzü daim yüksək səviyyədə saxlamağımıza imkan yaradacaq. Həm qəhrəman övladlarımızın şücaəti, fədakarlığı, eyni zamanda, texniki təchizat və yeni texnologiyaların tətbiqi müharibədə Qələbənin qazanılmasının əsas amillərindən biridir.

COVID-19-la birgə mübarizəyə dəstək məqsədilə dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü ilə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərin, görüşlərin özünütəcrid qaydalarına uyğun olaraq videoformatda təşkili hər bir ölkənin, o cümlədən Azərbaycanın innovasiyalar sahəsində mövcud imkanlarına işıq salır, ölkəmizin bu sahədə də liderliyini qoruyur.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

a